# Etik kodeks

**Sosial İşin Etik Qaydaları, Prinsiplərin Ümumi İcmalı**

**Beynəlxalq Sosial İşçilər Asosasiyası (BSİA)**
**Beynəlxalq Sosial İş Məktəblərinin Asosasiyası (BSİMA)**

## 1. Ön söz

Sosial Işin peşəkar tətbiqi zamanı müəyyən olunmuş etik qaydaları bilmək və onlara əməl etmək sosial işin t          əməl hissəsidir. Sosial İşin Etikasına uyğun olarar hərəkət etmək bacarığı və etik qaydalara sadiqlik sosial işçilərin göstərdiyi xidmətlərin keyfiyyətinin ən əsas amilidir. Beynəlxalq Sosial İşçilər Asosasiyası (BSİA)
və Beynəlxalq Sosial İş Məktəblərinin Asosasiyası (BSİMA) etik qaydalarla əlaqədar əsas məqsədi üzv olan təşkilatlar, üzv olan ölkələrdə sosial işçilər, eyni zamanda sosial işin tədrisi ilə məşğul olan məktəb və tələbələr arasında etik qaydaları təşviq etmək və onların əhəmiyyətini aşılamaqdan ibarətdir. Etik qaydalarla əlaqədar sosial işçilərin üzləşdiyi bəzi çətinliklər və problemlər bəzi ölkələr üçün səciyyəvidir;

Ümumi prinsiplər səviyyəsində olaraq, BSİA və BSİMA ümumi məqsədi dünyanın hər hansı bir yerində yerləşən sosial işçilərə tövsiyyə edirlər ki, onları çətinliyə salan dillema və çağırış haqqında düşünsünlər və hər bir ayrıca vəziyyət və halla üzləşdikdə necə davranmaq haqqında etik qaydalara uyğun olan qərarlar versinlər. Bəzi problemlər aşağıdakılardan ibarətdir:
Maraqlar üst-üstə düşərkən sosial işçilərin vicdanla hərəkət etməsinin hər şeydən əvvəl gəlməsi bir faktdır.

- Sosial işçilər həm kömək göstərən həm də idarə edənlər kimi fəaliyyət göstərməsi bir faktdır.
- Cəmiyyətdə resursların məhdud olması bir faktdır.

## 4. Prinsiplər

**4**.1. İnsan haqqları və İnsan ləyaqəti

Sosial iş bütün insanların ləyaqətinə və şəxsiyyətinə və bunlardan doğan haqqlara hörmətin əsasında yaranmışdır. Sosial işçilər hər bir şəxsin fiziki, psixoloji, mənəvi və ruhi vəhdətini və rifahını ön plana çəkməli və müdafiə etməlidirlər. Bu belə anlama gəlir ki:

**1. İnsanların öz müqəddəratlarını təyin etmək hüququna hörmətlə yanaşmaq-**

Sosial işçilər hər bir kəsin həyat tərzindən və dəyərlərindən aslı olmayaraq öz seçimlərini etmək və qərar vermək hüququna hörmət etməli və bu hüququ təşviq etməlidirlər və bunu təmin edərkən başqalarının hüquqlarına və maraqlarını mane olmamalıdırlar.

**2. Cəmiyyətin hər bir sahəsində iştirak etmək hüququnu təşviq etmək-** Sosial işçilər insanları həyatlarına təsir edən bütün sahələrdə iştirak etmək və bütün qərarları verməkdə onları səlahətləndirən xidmətlərdən tam istifadə etməklə cəmiyyətin hər bir sahəsində iştirak etməyə və cəlb olunmağa ruhlandırmalıdırlar.

**3. Hər bir şəxsə tam bir məhfum kimi davranmaq-**Treating each person as a whole – Sosial İşçilər insanlarla maraqlandıqda onunla bütövlüklə maraqlanmalıdırlar, yəni onun ailəsi ilə, yaşadığı toplum, cəmiyyət və təbii mühiti ilə də maraqlanmalıdırlar. Eyni zamanda insanın həyatının bütün amillərinə nəzər yetirməlidirlər.

**4. İnsanın güclü xüsusiyyətlərini müəyyən edib inkişaf etdrimək-** Sosial işçilər bütün fərdlərin, qrupların və toplumların güclü xüsusiyyətlərinə diqqəti cəlb etməlidirlər və onların daha da inkişaf edib mütəkilləşməsinə səy göstərməlidirlər.

**4.2. Sosial Ədalət-** Sosial işçilər ümumiyyətlə həm cəmiyyətdə olan ümumi ədalətsizliyə həm də işlədikləri fərdə qarşı törədilən ədalətsizliyə qarşı mübarizə aparmaq və ədaləti təşviq etmək kimi böyük bir məsuliyyəti daşıyırlar. Sosial ədalət dedikdə aşağıdakılar nəzərdə tutulur:

**1. Mənfi ayrıseçkiliyə qarşı mübarizə-** Sosial İşçilər cəmiyyətlərdə insanlara qarşı törədilən bacarıq, yaş, mədəniyyət, gender və ya cins, ailə vəziyyəti, sosial-iqtisadi durum, siyasi inam, dərisinin rəngi, irqi, başqa fiziki xüsusiyyətləri, cinsi yönümlülüyü və dini baxışları zəminində olan bütün mənfi ayrıseçkiliyə qarşı mübarizə aparmaq kimi məsuliyyət daşıyırlar.

**2. Müxtəlifliliyi tanımaq** – Sosial işçilər cəmiyyətlərdə mövcud olan mədəni və etnik müxtəlifliliyi dərk etməlidirlər və hörmət etməlidirlər. Eyni zamanda işlədikləri cəmiyyətlərdə fərdi, ailə, qrup və toplumların müxtəlifliklərini də nəzərə alıb hörmətlə yanaşmalıdırlar.

**3. Resursları bərabər bölüşdürülməsi –** Sosial işçilər istifadədə olan resursları cəmiyyətdə ehtiyaclara uyğun olaraq ədalətli bölüşdülümüşdür.

**4. Ədalətsiz siyasətlərə və hərəkətlərə qarşı mübarizə**– Sosial İşçilərin resursların ədalətsiz bölüşdürülməsi, zülümkar, ədalətsiz və məhv edici siyasətlərin, davranışların və hərəkətlərin mövcudluğu faktını öz müdirlərinin, siyasətçilərin, siyasi proqram hazırlayanların və ümumi içtimayyətin diqqətinə çatdırmaq kimi vəzifələri var.

**5. Həmrəy olmaq** – Sosial işçilərin sosial təcridliyə, damğalamağa, və ya itaətçiliyə şərait yaradan bütün sosial şərtlərə qarşı mübarizə aparmaq və inklusiv cəmiyyətin qurulmasına çalışmaq kimi vəzifələri var.

**5. Peşəkar davranış**

1. Sosial işçilərdən tələb olunur ki, işlərini peşəkarcasına görmək üçün tələb olunan bacarıq, bilik və keyfiyyətləri əldə etsinlər və inkişaf etdirsinlər.

2. Sosial işçilər onların bilik və bacarıqlraı qeyri-humanist məqsədlər üçün istifadə olunmasına yol verməməlidirlər (misal üçüm işgəncə və ya terorçullug məqsədilə).

3. Sosial işçilər öz işlərində düzgünlüyə riaət etməlidirlər. Bura sosial işçilərin təmin etdiyi xidmətdən istifadə edən insanları alçaltmamaq, bu insanların etimadından və münasibətlərindən sui istifadə etməmək, peşəkar və şəxsi həyat arasındakı sərhədləri dərk etmək və tutduqları vəzifədən şəxsi mənfəətləri üçün sui istifadə etməmək kimi qaydalar daxildir.

4. Sosial işçilər xidmət etdikləri insanlara qayğı, ürək yanğısı və empatiya göstərməlidirlər.

5. Social işçilər öz maraq və ehtiyaclarını xidmət göstərdikləri şəxslərin maraq və ehtiyaclarından üstün tutmamalıdrılar.

6. Sosial işçilərin layiqli və səmərəli xidmət göstərmləri üçün cəmiyyətdə və iş yerində öz peşəkar və şəxsi qayğlarına qalmaq üçün lazımı addımlar atmaq kimi vəzifələri var.

7. Sosial işçilər xidmət etdikləri insanlara aid məlumatları məxfi saxlamalıdırlar. Bu qayda o vaxt pozula bilər ki bu məlumatın məxfi saxlanması əhəmiyyətli və həyati vacib etik qaydaların pozulmasına səbəb olsun (hər hansı bir həyatın qurtarılması).

8. Sosial işçilər dərk etməlidirlər ki, onlar xidmət göstərdikləri insanlarla, işlədikləri insanlarla, həmkarları, müdirləri, peşəkar asosasiyalar və qanunlarla

əlaqədar atdıqları hər bir addım üçün məsuliyyət daşıyırlar və bilməlidirlər ki, bu məsuliyyətlər üst-üstə düşə bilər.

9. Sosial işçilər, sosial iş təhsili alan tələbələrinin keyfiyyətli praktiki bilik və praktiki bacarıq əldə etmələri üçün sosial iş məktəbləri ilə yaxından əməkdaşlıq etməlidirlər.

10. Sosial işçilər öz həmkarları və müdirləri ilə etik qaydalar haqqında müzakirələr aparmalıdırlar və etik qaydalara yuğun qərar verməkdə məsuliyyət daşımalıdırlar.

11. Sosial işçilər etik qaydalara əsaslanaraq verdikləri qərarı əsaslandırmağa hazır olmalıdırlar və etdikləri seçimə və hərəkətə görə məsuliyyət daşımalıdırlar.

12. Sosial işçilər yerləşdiyi ölkələrdə elə bir şərait yaratmalıdırlar ki, həmin ölkədəki təşkilat və qurumlarda ya bu sənddə verilən ya da həmin ölkədə hazırlanmış etik qaydalar və ya etik prinsiplər müzakirə olunsun, dəyrələndirilsin və riaət olunsun.

**“Sosial İşdə Etik Qaydalar və Prinsiplər” sənədi Beynəlxalq Sosial İşçilər Federasiyasının və Beynəlxalq Sosial İş Məktəblər Asosasiyasının 2004-cü il Oktyabr ayında Adeliade, Avstraliyada keçirilən Ümumi İclaslarında qəbul olunmuşdur.**